# Leyla Əliyeva Qəbələdə









Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Qəbələ rayonunun Çuxur-Qəbələ kəndində yerləşən Qəbələ Arxeoloji Mərkəzinin parkında Qəbələnin Vəndam qəsəbəsindən olan rəssam Yəhya Cəlilovun ilk fərdi sərgisinin açılışında iştirak edib. Sərgidə rəssamın 38 əsəri nümayiş olunub. Sonra Qəbələ Arxeoloji Mərkəzinin yaxınlığında yerləşən parkda İctimai Birliyin təşəbbüsü əsasında ağacəkmə aksiyası keçirilib. Aksiyada Qəbələ və Bakıdan olmaqla, ümumilikdə 32 uşaq iştirak edib.

# Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Kımqu Kanqın Qəbələ rayonuna səfəri

10 iyul 2026-cı il tarixində Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Kanq Kımqu Qəbələ rayonuna səfəri çərçivəsində rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevlə görüşmüşdür. Görüş zamanı RİH başçısı tərəfindən rayonun iqtisadi göstəriciləri, sosial və mədəni həyatı, rayonda yaradılan yeni istehsal müəssisələri, sənaye və turizm obyektləri, eləcə də rayonda keçirilən beynəlxalq tədbirlər barədə ətraflı məlumat



verilmişdir. Qarşılıqlı səmimiyyət mühitində keçən görüşdə ikitərəfli münasibətlərin müxtəlif aspektləri dinlənilmiş, qarşılıqlı əlaqələrin inkişaf imkanlarının genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılmışdır. Həmçinin görüş zamanı 20 avqust 2015-ci il tarixində Qəbələ rayonunda Azərbaycan Respublikasının Qəbələ şəhəri ilə Koreya Respublikasının Qyonqcu şəhəri arasında imzalanmış "Dostluq Münasibətlərinin Qurulması Haqqında Saziş"ə əsasən sıx əlaqələrin olduğu vurğulanmış, bu əlaqələrin daha da genişləndirilməsi məqsədilə qarşılıqlı səfərlərin təşkil edilməsi məqsədəmüvafiq hesab edilmişdir. Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Kanq Kımqu belə görüşlərin keçirilməsinin iki ölkə arasında siyasi, sosial-iqtisadi və mədəni əlaqələrin daha da inkişaf etməsinə böyük töhfə verəcəyini bildirmiş və səmimi qarşılandığına görə təşəkkür etmişdir. Sonda tərəflər arasında qarşılıqlı hədiyyələr təqdim olunmuşdur.

# Mükafatlandırma mərasimi

Fövqəladə Hallar Nazirliyinin (FHN) təşkilatçılığı, Elm və Təhsil, Gənclər və İdman nazirliklərinin, Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən XII Beynəlxalq "Gənc xilasedici" və XIII Ümumrespublika "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının qaliblərinin iyulun 4-də Qəbələ şəhərində mükafatlandırma mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, gənclər və idman naziri Fərid Qayıbov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Vətən müharibəsi şəhidlərinin övladları və ailə üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.





Bu ilki yarışlara Azərbaycanla yanaşı, Qazaxıstan, Özbəkistan, Belarus və Rusiyadan olan komandalar iştirakçı, Tacikistan isə müşahidəçi qismində qatılıb.

Yarışlar yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilərə sağlam həyat tərzinin, fərdi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin və milli vətənpərvərlik ruhunun aşılanması, xilasedici peşəsinə marağın artırılması, müxtəlif ölkələrin gənc xilasedicilər arasında dostluq və əməkdaşlıq əlaqələrinin formalaşdırılması məqsədilə təşkil edilib.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan rəsmi hissədə əvvəlcə yarışlar haqqında FHN-in hazırladığı videoçarx nümayiş olunub.

Sonra məktəblilərin təqdimatında milli vətənpərvərlik və ölkələr arasında dostluğu tərənnüm edən bədii hissə izlənilib, qaliblərə kubok, diplom, fəxri fərman və qiymətli hədiyyələr, digər iştirakçılara isə fəxri fərman və xatirə hədiyyələri təqdim olunub.Qeyd edək ki, komandalar yarışlarda "Maneələr zolağı", "Kombinə edilmiş yanğın estafeti", "Axtarış-xilasetmə işi", "Komandaların təqdimatı" və "Divar qəzeti" mərhələlərində güclərini sınayıblar.

Gərgin mübarizə şəraitində keçən beynəlxalq yarışda birinci yeri Azərbaycan, ikinci yeri Özbəkistan, üçüncü yeri isə Belarus komandası tutub. Ümumrespublika birinciliyində isə birinci yerə İsmayıllı şəhər N.Behdiyev adına 6 nömrəli tam orta məktəbin, ikinci yerə Naxçıvan Muxtar Respublikası Babək rayon Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbin, üçüncü yerə isə Qusar rayon Yuxarı Zeyxur kənd tam orta ümumtəhsil məktəbinin komandası layiq görülüb.